# MƏLUMATLARIN MÜHAFİZƏSİ VƏ ŞƏXSİ HƏYATIN GİZLİLİYİ




**Bələdçi**

Nevena Rujiç
Altay İsmayılov

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# MƏLUMATLARIN MÜHAFİZƏSİ VƏ ŞƏXSİ HƏYATIN GİZLİLİYİ

**Nevena Rujiç**
**Altay İsmayılov**

Bələdçi

2022

**Avropa Şurası**

# Mündəricat


| | |
|---|---|
| **Bu bələdçi kitabdan necə istifadə etməli** | 5 |
| **Məlumatların mühafizəsi və şəxsi həyatın gizli qalmalı olan aspektləri haqqında** | 7 |
| **Qısaltmaların siyahısı** | 8 |
| **Məlumatların mühafizəsinin terminologiyası** | 9 |
| a) (Fərdi) məlumatlar nədir ? | 9 |
| b ) Fərdi məlumatların işlənilməsi nədir ? | 13 |
| c ) Məlumatların mühafizəsinin subyektləri kimlərdir ? | 14 |
| d) Müvafiq hüquqi sənədlər hansılardır ? | 17 |
| **Məlumatların mühafizəsinin prinsipləri** | 21 |
| **Məlumat subyektlərinin hüquqları** | 27 |
| **Nəzarətçilərin və emalçıların vəzifələri** | 30 |
| **Müvafiq məhkəmə işləri** | 33 |
| - Fərdi məlumatların əldə edilməsi | 33 |
| - Məlumatların mühafizəsinin ifadə azadlığı və informasiya əldə etmək hüququ ilə balanslaşdırılması | 33 |
| - Məlumat subyektinin razılığı | 34 |
| - Yazışmalar | 34 |
| - DNT məlumatları bazası | 34 |
| - GPS məlumatları | 35 |
| - Sağlamlıqla bağlı məlumatlar | 35 |
| - İdentiklik | 35 |
| - İş yerində şəxsi həyatın toxunulmazlığı | 35 |
| - Müşahidə və texnologiyalar | 36 |
| - Videomüşahidə | 36 |
| **Faydalı resurslar** | 37 |



*Orijinal: A Guide to Data Protection and Privacy*

*Bu nəşr Avropa Şurasının “Azərbaycanda Media Peşəkarlığı və İnformasiya Azadlığının Təşviqi – (PRO-M-FEX)” layihəsi çərçivəsində hazırlanmışdır. Bu materialda ifadə edilmiş fikirlərə görə müəlliflər cavabdehlik daşıyır və onlar Avropa Şurasının rəsmi siyasətini eks etdirməyə bilər.*

**Kommersiya məqsədləri istisna olmaqla, mətnin bütövlüyü qorunduğu, kontekstdən kənar istifadə edilmədiyi, natamam və ya yanlış məlumat verilmədiyi təqdirdə çıxarışların təkrar çap olunmasına (500 sözə qədər) icazə verilir. Mətnin mənbəsi həmişə aşağıdakı kimi qeyd edilməlidir: “© Avropa Şurası, nəşr ili”. Təkrar çap olunması və ya tərcüməsi ilə bağlı digər bütün müraciətlər Avropa Şurasının Kommunikasiya Direktorluğuna ünvanlanmalıdır (F-67075 Strasbourg Cedex və ya publishing@coe.int).**

**Üz qabığı və tərtibat:**
**Express Print MMC**

**Bu nəşrlə bağlı digər bütün müraciətlər Avropa Şurasının Kommunikasiya Direktorluğuna ünvanlanmalıdır (F-67075 Strasbourg Cedex və ya publishing@coe.int).**

© **Avropa Şurası,** oktyabr 2022-ci il
**Express Print MMC**
tərəfindən çap olunub

# Giriş

## Bu Bələdçi Kitabdan Necə İstifadə Etməli

Bu bələdçi kitab məlumatların mühafizəsi üzrə milli tənzimləyici normalara istinad etməklə öz oxucusunu Avropa Şurasının və Avropa İttifaqının məlumatların qorunması rejimlərinin mühüm xüsusiyyətləri ilə tanış etmək məqsədi daşıyır. Bu bələdçi təkcə hüquqşünaslar üçün nəzərdə tutulmayıb. Lakin kitabın ünvanlandığı əsas şəxslər hüquqşünaslardır və məqsəd onların mürəkkəb beynəlxalq standartları və milli qanunvericilik müddəalarını daha yaxşı başa düşüb tətbiq etmələrinə dəstək olmaqdır.

"Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu 2010-cu ildə qəbul edilib və o vaxtdan bəri ona əhəmiyyətli bir dəyişiklik edilməyib. Həmin dövrdə Avropa Şurasının məlumatların mühafizəsi haqqında sənədləri Azərbaycan Respublikasının ratifikasiya etdiyi "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiya"dan (108 saylı Konvensiya kimi tanınır), Azərbaycan Respublikasının ratifikasiya etmədiyi "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiyaya Əlavə Protokol"dan və məlumatların mühafizəsinin konkret aspektlərinə aid bir sıra tövsiyə və qərarlardan ibarət idi. Milli qanunun qəbul edildiyi dövrdə Avropa İttifaqı "Məlumatların mühafizəsi haqqında 95/46/EC saylı Direktiv"i və məlumatların mühafizəsinin müəyyən aspektlərinə, məsələn, telekommunikasiya məsələlərinə dair bir neçə digər direktivləri tətbiq edirdi.

Bu arada informasiya texnologiyalarının sürətli inkişafı və onlardan asılılıq bütün dünyada məlumatların mühafizəsi məsələlərinə daha çox diqqət yetirilməsi ilə nəticələndi ki, bu da həm beynəlxalq sənədlərə, həm də milli qanunvericiliyə təsir etdi. Dünya miqyasında məlumatların mühafizəsinə verilən önəm Birləşmiş Millətlər Təşkilatının, daha konkret desək, İnsan Hüquqları Şurasının 2015-ci ildə Şəxsi həyatın gizliliyi hüququ ("privatlıq") üzrə Xüsusi Məruzəçi vəzifəsinin təsis edilməsi haqqında qərarında öz əksini tapdı.

Avropa Şurası səviyyəsində 2018-ci ildə dəyişikliklər haqqında yeni Protokol (108+ saylı Konvensiya) qəbul edilmişdir ki, bununla məlumatların mühafizəsi üzrə Avropa

standartı AŞ-yə üzv olmayan, amma 108+ saylı Konvensiyanı imzalayan və ratifikasiya edən dövlətlərə də şamil edilir. 108+ saylı Konvensiya, digər müddəalarla yanaşı, fərdi məlumatların işlənilməsinin anlayışları, fərdi məlumatların kateqoriyaları, razılıq, məlumat subyektlərinin hüquqları, məlumatların transsərhəd ötürülməsi, müstəqil orqanların səlahiyyətləri barədə çoxsaylı yeni müddəaları özündə birləşdirib. Başqa sözlə, əhəmiyyətli dərəcədə dəyişikliklər edilməklə yeni normalar toplusu yaradılıb. 108+ saylı Konvensiya da birincisi kimi əhatə dairəsi baxımından məhdud deyil. Üzv Dövlətlərə milli təhlükəsizlik sahəsində öz mülahizələri əsasında Konvensiyanın tətbiqini məhdudlaşdırmaq səlahiyyəti verilsə də, belə istisnalar və ya məhdudiyyətlər məlumatların işlənilməsinin qanuniliyi, məlumatların təhlükəsizliyi, işlənilməsinin şəffaflığı və ya məlumat subyektlərinin hüquqları ilə bağlı Konvensiya ilə müəyyən edilmiş standartlara aid edilə bilməz. Bundan əlavə, bu müddət ərzində bütövlükdə Avropa Şurasının işi sürətlənib və yeni tövsiyələr qəbul edilib.

Avropa İttifaqı səviyyəsində fərdi məlumatların mühafizəsi onun Üzv Dövlətlərinin deyil, Aİ-nin səlahiyyətlərinə aid edilmiş və 2016-cı ildə "Məlumatların mühafizəsinə dair Ümumi Reqlament" ("GDPR") qəbul edilmiş və 2018-ci ilin may ayından qüvvəyə minmişdir. Bir sözlə, GDPR-nin məqsədi həm dövlət, həm də özəl sektorda fərdi məlumatların müntəzəm işlənilməsi üçün hərtərəfli və birbaşa tətbiq olunan qaydalar toplusunu təmin etmək və belə fərdi məlumatların aid olduğu şəxslərə (yəni məlumat subyektlərinə) məlumatların işlənilməsi ilə bağlı hüquqları üzərində nəzarətə sahib olmaq və onları həyata keçirmək üçün imkan yaratmaq idi. GDPR, həmçinin icra hakimiyyətindən asılı olmayan xüsusi təyin edilmiş orqanlara müddəaların ümumi icrasına nəzarət etmək və hətta uyğunsuzluq halında çox yüksək cərimələr tətbiq etmək üçün geniş səlahiyyətlər vermişdir. Bununla belə, GDPR nə cinayətkarlıqla mübarizə və ya ictimai təhlükəsizlik, nə də milli təhlükəsizlik sahəsindəki fəaliyyət nəticəsində əldə edilən məlumatların işlənilməsinə tətbiq edilir. Bunlardan birincisi GDPR ilə birlikdə qəbul edilmiş "Məlumatların hüquq-mühafizə məqsədləri üçün işlənməsinə dair Direktiv" ("LED") ilə tənzimlənir.

Bu proseslər Avropada və bütün dünyada məlumatların mühafizəsinə dair çoxlu sayda yeni qanunvericilik aktlarının qəbulu ilə nəticələndi.

# Məlumatların Mühafizəsi və Şəxsi Həyatın Gizli Qalmalı Olan Aspektləri Haqqında

Qeyd: Bu kitabda “privacy” sözü “şəxsi həyatın gizliliyi; yaxud gizli qalmalı olan aspektləri”, “right to privacy” isə “şəxsi həyatın gizliliyi hüququ” olaraq tərcümə edilib. İngilis dilindəki hər iki ifadənin Azərbaycan dilində birbaşa qarşılığı yoxdur. Ona görə də, ifadələrin mənası baxımından ən düzgün hesab edilən tərcümələr seçildi. Bu seçimdə, xüsusilə də, Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsi üzrə əvvəllər Azərbaycan dilinə tərcümə edilmiş nəşrlərin dilinə diqqət yetirilib.

Şəxsi həyatın gizliliyi hüququ və məlumatların mühafizəsi hüququ çox vaxt paralel olaraq tətbiq edilir və çox zaman bir-biri ilə eyniləşdirilir. Lakin bu hüquqlar eyni deyil.

Şəxsi həyatın gizliliyi hüququ adətən ictimai sferanın əhatə dairəsindən kənar hesab edilən məsələlərə aiddir. O, təkcə məlumatlara aid deyil. Məsələn, bir insanın evinə özbaşına daxil olma böyük ehtimalla şəxsi həyatın gizliliyi (mənzilin gizliliyi) hüququnun pozuntusu olacaqdır. Bununla belə, bu, məlumatların mühafizəsi hüququna təsir etməyəcəkdir. Məlumatların işlənildiyi bir çox situasiyalar, məsələn, ictimai reyestrlərin aparılması məlumatların mühafizəsi hüququna təsir göstərə bilər, amma şəxsi həyatın gizliliyi hüququna, xüsusən də bu hüququ dar mənada götürsək, təsir göstərməyə də bilər. Sadə dildə desək, şəxsi həyatın gizliliyi hüququ insan həyatının gizli qalmalı olan aspektlərinə aiddir.

Bələdçi kitabda xüsusilə məlumatların mühafizəsi standartlarından bəhs edilsə də, şəxsi həyatın gizliliyi hüququna da toxunulur.

# Qısaltmaların Siyahısı

| | |
|---|---|
| **108 saylı Konvensiya:** | Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiya (ETS № 108), 1 oktyabr 1985-ci ildə qüvvəyə minib. |
| **108+ saylı Konvensiya:** | Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiyada dəyişikliklər edilməsi barədə Protokol (CETS № 223), 10 oktyabr 2018-ci ildə imzalanmaq üçün açıq elan olunub. |
| **GDPR:** | ("Məlumatların mühafizəsinə dair Ümumi Reqlament") – Fərdi məlumatların işlənməsi və bu cür məlumatların sərbəst hərəkəti ilə əlaqədar fiziki şəxslərin qorunması haqqında Avropa İttifaqı Parlamentinin və Şurasının 27 aprel 2016-cı il tarixli (Aİ) 2016/679 saylı Reqlamenti – bu Reqlamentin qəbulu ilə 95/46/EC saylı Direktiv ləğv edilib. |
| **"Fərdi məlumatlar haqqında" Qanun:** | "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan qəzeti, №121, 06.06.2010). |

# Məlumatların Mühafizəsinin Terminologiyası

Məlumatların mühafizəsinin terminologiyası bu sahədə müxtəlif anlayışları başa düşmək üçün açardır, xüsusən də ona görə ki, ümumi linqvistik şərhlərdən baxdıqda terminlər bəzən məntiqsiz və əlaqəsiz görünür. Məsələn, ***fərdi məlumatların işlənilməsi*** anlayışı fərdi məlumatlar üzərində hər hansı əməliyyatın və ya əməliyyatlar toplusunun həyata keçirilməsini, misal üçün, fərdi məlumatların toplanması, saxlanması, mühafizəsi, onlarda dəyişikliklər edilməsi, onların bərpası, açıqlanması, əlçatan edilməsi, silinməsi və ya məhv edilməsi, yaxud bu cür məlumatlar üzərində hər hansı məntiqi və (və ya) riyazi əməliyyatların aparılmasını bildirir. Buna görə də, kimsə məlumatları "yalnız" saxladıqda və "məlumatlarla heç bir şey etmədikdə" belə, bu saxlama fərdi məlumatların işlənilməsi hesab olunur və belə hallara müvafiq qanunlar, eləcə də beynəlxalq standartlar tətbiq edilir.

Məlumatların mühafizəsinin çox vaxt beynəlxalq normaların və ya müxtəlif hüquqi rejimlərin tətbiqini tələb etdiyini nəzərə alsaq, əsas anlayışlarla bağlı ümumi təsəvvürə malik olmaq vacibdir.

### a) (Fərdi) məlumatlar nədir?

- Fərdi məlumatlar

Ümumiyyətlə, "fərdi məlumatlar", 108 saylı Konvensiyaya uyğun olaraq, kimliyi müəyyən edilmiş və ya müəyyən edilə bilən fərdə aid olan hər hansı məlumat deməkdir. Başqa sözlə, o, kimliyi müəyyənləşdirilmiş və ya müəyyənləşdirilə bilən fiziki şəxsə aidiyyəti olan istənilən elə məlumatı bildirir ki, həmin məlumatın vasitəsilə həmin şəxsin kimliyi birbaşa və ya dolayısı ilə müəyyən edilə bilər. Buraya xüsusən şəxsin adı, identifikasiya nömrəsi, olduğu yer, onlayn identifikator və ya onun fiziki, fizioloji, genetik, əqli, iqtisadi, mədəni və ya sosial identikliyinə xas olan bir və ya bir neçə faktor aiddir [GDPR, maddə 4(1)].

Məsələn, şəxsin adı, eləcə də fərdi identifikasiya nömrəsi, doğum tarixi, elektron poçt

ünvanı, şəkli, barmaq izi və ya ləqəbi fərdi məlumatlardır. Bununla belə, fərdi məlumatlara həm də digər məlumatlar aiddir ki, ilk baxışdan onlar "fərdi məlumat" anlayışının əhatə dairəsinə düşmür. Bu, şəxs haqqındakı rəylərə aiddir. Onlar da fərdi məlumatlar kimi tövsif edilir.

*"Fərdi məlumatlar haqqında" Qanunun* 2.1.1-ci maddəsində fərdi məlumatların anlayışı nəzərdə tutulur. Fərdi məlumatlar şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən məlumatı bildirir. Lakin bu, Azərbaycan qanunvericiliyində "fərdi məlumatlar" termininin yeganə anlayışı deyil və bu anlayışın daha dar çərçivədə götürüldüyü hallar da, məsələn "İnformasiya əldə etmək haqqında" Qanunun 3.0.2-ci maddəsindəki kimi, ola bilər. Buna baxmayaraq, məlumatların mühafizəsi rejimi üçün "Fərdi məlumatlar haqqında Qanun"da nəzərdə tutulmuş anlayış hər bir hala tətbiq oluna bilən anlayış kimi qəbul edilməlidir.

*"Fərdi məlumatlar haqqında" Qanunda "*konfidensial" və "açıq" məlumat kateqoriyaları fərqləndirilir. 5.3-cü maddəyə əsasən, açıq fərdi məlumatlara subyekt tərəfindən açıq elan olunmuş və ya ümumi istifadə üçün yaradılmış informasiya sisteminə məlumat subyektinin razılığı ilə onun barəsində daxil edilmiş məlumatlar aiddir. Məlumat subyektinin adı, soyadı və atasının adı daimi açıq fərdi məlumat hesab edilir. Məlumat açıqdırsa, Qanun onun konfidensiallığının təmin olunmasını tələb etmir. Məlumatların "statusundan" asılı olmayaraq, məlumatların mühafizəsi rejimi onlara tətbiq edilir.

- Məlumatların xüsusi kateqoriyası

Xüsusi kateqoriyalı məlumatlara o məlumatlar aiddir ki, insan üçün dəyərli olduqlarına görə xüsusi qaydada davranılma və yaxud başqa sözlə, daha diqqətli rəftar tələb edir. Bu məlumatların anlayışı fərqli ola bilər.

108+ saylı Konvensiyaya əsasən, bunlar genetik məlumatlar, cinayətlərə, cinayət proseslərinə və məhkumluğa aid fərdi məlumatlar və onlarla əlaqədar təhlükəsizlik

tədbirləri, şəxsiyyəti birmənalı şəkildə identikləşdirən biometrik məlumatlar, habelə irqi və ya etnik mənşə, siyasi baxışlar, həmkarlar ittifaqına üzvlük, dini və ya digər əqidələr, sağlamlıq durumu və ya cinsi həyat ilə bağlı informasiyaları aşkar etməyə imkan verən məlumatlardır.

GDPR-də siyahı bir qədər fərqlidir, buraya irqi və ya etnik mənşə, siyasi baxışlar, dini və ya fəlsəfi əqidələr və yaxud həmkarlar ittifaqına üzvlüklə bağlı informasiyaları aşkar etməyə imkan verən məlumatlar, işlənilə (emal oluna) bilən genetik məlumatlar, şəxsiyyəti birmənalı şəkildə identikləşdirən biometrik məlumatlar, sağlamlıq durumuna aid məlumatlar və yaxud fiziki şəxsin cinsi həyatı və ya cinsi oriyentasiyası ilə bağlı məlumatlar daxildir. GDPR-ə əsasən, cinayətlə bağlı məhkumluqlara və cinayət əməllərinə və ya bunlarla bağlı təhlükəsizlik tədbirlərinə aid məlumatlar xüsusi kateqoriyalı məlumatlar olmasa da, onlar yalnız xüsusi hallarda işlənilə bilər.

Ümumiyyətlə, xüsusi kateqoriyalı məlumat anlayışının əhatə etdiyi məlumatların işlənilməsi üçün əlavə tələblər irəli sürülür. Məsələn, sağlamlıqla bağlı fərdi məlumatların işlənilməsini nəzərdə tutan qanunvericilikdə həm də əlavə təminatlar nəzərdə tutulmalıdır. Eləcə də keçmişdə məhkumluğun olmasına və ya hətta olmamasına aid məlumatlar yalnız müəyyən hallarda işlənilə bilər.

*"Fərdi məlumatlar haqqında" Qanunun* 2.1.6-cı maddəsinə əsasən, xüsusi kateqoriyalı fərdi məlumatlar fiziki şəxsin irqi və ya milli mənsubiyyətinə, ailə həyatına, dini etiqadına və əqidəsinə, səhhətinə və ya məhkumluğuna aid olan məlumatlar hesab edilir. Fərdi məlumatların işlənilməsinin əsas şərtlərini müəyyən edən 9-cu maddədə şəxsin bioloji xüsusiyyətlərini səciyyələndirən və onun kimliyini birmənalı olaraq müəyyənləşdirməyə imkan verən məlumatlardan, yəni biometrik məlumatlardan bəhs edilsə də, onların işlənilməsinə ümumi şərtlər şamil olunur və onlar konfidensial hesab edilmir.

- Təxəllüslü məlumatlar

Təxəllüslü məlumatlar şəxsin kimliyinin müəyyən edilməsi məqsədilə saxlanılan əlavə məlumatlardan istifadə etmədən konkret şəxsə (məlumatların mühafizəsi terminologiyasında "məlumat subyektinə") aid edilə bilməyən məlumatlardır. Həmin əlavə məlumatlar ayrıca saxlanılır.

Təxəllüslü məlumatlardan söhbət getdikdə, əlavə məlumatlardan istifadə edə bilməyənlərin hamısı üçün məlumat subyekti naməlum olur. Bununla belə, baxmayaraq ki məlumat subyektinin kimliyi ictimaiyyət üçün naməlum qalır, təxəllüslü məlumatlar fərdi məlumatlar hesab olunur, buna görə də məlumatların mühafizəsi rejimi onlara şamil olunur.

Təxəllüsdən istifadə məlumatların təhlükəsizliyi tədbiri olmaqla ya qanunvericiliklə tələb olunan hallarda, məsələn, klinik araşdırmalar zamanı, ya da məlumat subyektləri üçün risklərin qarşısını almaqdan ötrü əlavə tədbir kimi istifadə olunur.

*"Fərdi məlumatlar haqqında" Qanunda* təxəllüslü məlumatların anlayışı yoxdur və təxəllüsün istifadəsindən bəhs edilmir. Bununla belə, vurğulamaq vacibdir ki, təxəllüsün (şərti adın) istifadəsinə icazə verilir və "Fərdi məlumatlar haqqında Qanun" belə hallara şamil olunur.

– Anonim məlumatlar

Təxəllüslü məlumatlardan fərqli olaraq, anonim məlumatlar o deməkdir ki, əvvəllər fərdi məlumat subyektinin kimliyini göstərən məlumatlar daha məlumat subyektinin kimliyini müəyyən etmək üçün istifadə oluna bilməz. Başqa sözlə, şəxsiyyətin təkrarən müəyyənləşdirilməsi mümkün deyil.

Anonim məlumatlar konkret məlumat subyektinə aid edilə bilmədiyi üçün fərdi məlumat hesab edilmir. Buna görə də, məlumatların mühafizəsi rejimi onlara şamil edilmir.

*"Fərdi məlumatlar haqqında" Qanunun* 2.1.15-ci maddəsində deyilir ki, fərdi məlumatların adsızlaşdırılması (anonimləşdirilməsi) fərdi məlumatların onun subyektinin kimliyini müəyyənləşdirməyə imkan verməyən vəziyyətə salınması deməkdir. Yuxarıda qeyd edildiyi kimi, məlumatların mühafizəsi rejimi anonim məlumatlara şamil edilmir. Lakin bəzi digər müddəalardan belə görünür ki, Qanun bu məlumatlara da şamil edilə bilər. Məsələn, 9.13-cü maddədə qeyd olunur ki, adsızlaşdırılmış məlumatların işlənilməsi nəticələrinin dövlət sirri təşkil edən məlumatlara aid edildiyi halda həmin məlumatların qorunması dövlət sirri haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq həyata keçirilir.

### b) Fərdi məlumatların işlənilməsi nədir?

- Fərdi məlumatların işlənilməsi

"Məlumatların işlənilməsi" fərdi məlumatlar üzərində hər hansı əməliyyatın və ya əməliyyatlar toplusunun həyata keçirilməsini, misal üçün, fərdi məlumatların toplanması, saxlanması, mühafizəsi, dəyişikliklər edilməsi, bərpası, açıqlanması, əlçatan edilməsi, silinməsi və ya məhv edilməsi, yaxud bu cür məlumatlar üzərində hər hansı məntiqi və (və ya) riyazi əməliyyatların aparılmasını bildirir (108 saylı Konvensiya). Beləliklə, istənilən fəaliyyət, o cümlədən məlumatların saxlanması və ya silinməsi kimi passiv görünən fəaliyyətlər də fərdi məlumatların işlənilməsi deməkdir.

*"Fərdi məlumatlar haqqında" Qanunda* fərdi məlumatların işlənilməsinin anlayışı, eləcə də onların toplanılması, yayılması və ya məhv edilməsi kimi müəyyən işlənilmə fəaliyyətlərinin müvafiq anlayışları verilir. Bu hərəkətlərin özləri də fərdi məlumatların işlənilməsi kimi qəbul edilməlidir.

- Transsərhəd məlumat axını

Transsərhəd məlumat axını, yaxud *"Fərdi məlumatlar haqqında" Qanunun* 2.1.16-cı maddəsindəki anlayışda deyildiyi kimi, məlumatların transsərhəd ötürülməsi də

faktiki olaraq fərdi məlumatların işlənilməsi əməliyyatıdır. Bu fəaliyyət məlumat subyektləri üçün mühüm əhəmiyyət daşıdığına görə burada məlumat subyektlərinin qoruması üçün müvafiq təminatların olması şərtdir.

### c) Məlumatların mühafizəsinin subyektləri kimlərdir?

- Məlumat subyekti

Məlumat subyekti məlumatların aid olduğu fiziki şəxsi bildirir. O, xüsusən də məlumatların mühafizəsi yalnız şəxslərə aid olduğundan, istənilən məlumat mühafizəsi sisteminin mərkəzi subyektidir.

Məlumatların mühafizəsi hüququ fərdi hüquq olduğuna görə, məlumatların mühafizəsi ilə bağlı qanunvericiliyin yalnız sağ olan şəxslərə aid olmasını nəzərdə tutur. Məlumatların mühafizəsinə dair bəzi milli qanunvericilik müddəalarında ölmüş şəxslərlə bağlı məlumatların işlənilməsinə aid normalar yer alır. Bununla belə, bu cür yanaşma ölmüş şəxslərə də müvafiq hüquqların verilməsi kimi deyil, bu məsələnin vahid bir qanunvericilik aktında həll edilməsi üçün praqmatik həll yolu kimi qəbul edilməlidir.

Bəzi dillərdə "məlumat subyekti" ifadəsi "məlumat mülkiyyətçisi" kimi tərcümə olunur. Bunu mülkiyyət hüququ ilə qarışıq salmamaq və fərdi məlumatların satıla və ya məhv edilə biləcəyi anlamına gələn analogiyadan istifadə etməmək üçün bu ifadəni işlətməkdən çəkinmək lazımdır.

*"Fərdi məlumatlar haqqında" Qanunun* 2.1.2-ci maddəsində fərdi məlumatların subyektinə belə anlayış verilir: barəsində fərdi məlumatlar toplanılan, işlənilən və mühafizə edilən, kimliyi müəyyənləşdirilmiş və ya müəyyənləşdirilən fiziki şəxs.

- Məlumatların nəzarətçisi

108 saylı Konvensiyaya əsasən, nəzarətçi məlumatların işlənilməsi ilə bağlı təkbaşına və ya başqaları ilə birgə qərar qəbul etmək səlahiyyətinə malik olan fiziki və ya hüquqi şəxs, dövlət orqanı, xidmət, agentlik və ya hər hansı digər orqan deməkdir. Burada mühüm element onların qərar qəbuletmə səlahiyyətidir.

Bəzi hallarda bu səlahiyyət əslində nəzarətçinin iradəsi daxilində olmur. Məsələn, hər bir işəgötürən qanunla işçilərin fərdi məlumatlarına münasibətdə məlumat nəzarətçisidir. Məlumat nəzarətçisi anlayışını müəyyən edən amil ondan ibarətdir ki, onun mövcudluğu və ya niyyəti olmazsa, fərdi məlumatların işlənilməsi mümkün olmaz.

Məlumat subyekti anlayışında olduğu kimi, bəzən məlumat nəzarətçisi anlayışı məlumat mülkiyyətçisi kimi müəyyən edilir, amma belə mülahizə rədd edilməlidir, çünki məlumat nəzarətçisi məlumatlarla bağlı hər bir hərəkətə görə cavabdehlik daşıyır.

*“Fərdi məlumatlar haqqında” Qanunun* 2.1.9-cu maddəsində nəzarətçi “fərdi məlumatların mülkiyyətçisi” kimi göstərilir. Lakin bu cür anlayışdan istifadə edərkən başa düşmək lazımdır ki, digər insanlara (məlumat subyektlərinə) aid olan məlumatlar üzərində heç bir “mülkiyyət” hüququ mövcud deyil.

- Məlumat emalçısı

108 saylı Konvensiyaya əsasən, məlumat emalçısı nəzarətçi adından fərdi məlumatların işlənilməsini (emalını) həyata keçirən fiziki və ya hüquqi şəxs, dövlət orqanı, xidmət, agentlik və ya hər hansı digər orqan deməkdir. Odur ki, məlumat emalçısının məlumat nəzarətçisi kimi fərdi məlumatlarda marağı yoxdur, onun marağı məlumat nəzarətçisi ilə arasındakı münasibətlərə aiddir.

Adətən məlumat emalçıları məlumat nəzarətçiləri tərəfindən seçilir. Buna baxmayaraq, bəzən məlumat emalçıları qanunvericiliklə müəyyən edilə bilər.

Təbii ki, məlumat emalçılarının öhdəliklərinin siyahısı məlumat nəzarətçilərininki ilə eyni deyil.

“*Fərdi məlumatlar haqqında” Qanunda “*məlumatların operatoruna” (yəni emalçısına) belə anlayış verilir: fərdi məlumatların toplanılmasını, işlənilməsini və mühafizəsini həyata keçirən fərdi məlumatların mülkiyyətçisi və ya onun bu funksiyaları müəyyən həcmdə və şərtlərlə həvalə etdiyi dövlət və ya yerli özünüidarə orqanı, hüquqi və ya fiziki şəxs. Baxmayaraq ki “məlumatların operatorunun” rolu “məlumatların mülkiyyətçisinin” rolundan fərqləndirilməlidir, Qanunda bir çox vəzifələr onların hər ikisinə eyni dərəcədə aid edilir.

- Məlumatları qəbul edən

Məlumatları qəbul edən məlumatın açıqlandığı və ya təqdim edildiyi fiziki və ya hüquqi şəxs, dövlət orqanı, xidmət, agentlik və ya hər hansı digər orqan deməkdir (108 saylı Konvensiya). Vəziyyətdən asılı olaraq, məlumatları qəbul edən nəzarətçi və ya emalçı ola bilər.

*“Fərdi məlumatlar haqqında” Qanunda “* fərdi məlumatların istifadəçisinə” belə anlayış verilir: yalnız özü üçün zəruri informasiyanın əldə olunması məqsədi ilə səlahiyyətləri daxilində mülkiyyətçi tərəfindən müəyyən edilmiş qaydada və həcmdə fərdi məlumatlardan istifadə hüququ verilmiş dövlət və ya yerli özünüidarə orqanı, hüquqi və ya fiziki şəxs.

- Məlumatların mühafizəsinə cavabdeh orqan

Dünyanın bir çox yurisdiksiyalarında məlumatların mühafizəsinə cavabdeh orqan yaradılmışdır ki, bu da ilk növbədə nəzarət səlahiyyətlərinə malik müstəqil qurumdur. Avropa Şurasına Üzv Dövlətlərin əksəriyyətində, xüsusən də Avropa İttifaqına üzv olan və ya 108 saylı Konvensiyaya Əlavə Protokolların iştirakçısı olan dövlətlərdə bu

orqana vəzifələrini yerinə yetirməsi üçün kifayət qədər resurslar verilir. Almaniya və ya İsveçrə kimi bəzi federal sistemli ölkələrdə federal ərazilər üçün də analoji orqanlar mövcuddur. Bu orqan, digər fəaliyyətlərlə yanaşı, aşağıdakı fəaliyyətləri həyata keçirmək səlahiyyətinə malikdir: ölkədə məlumatların mühafizəsinə nəzarət, fərdi məlumatların işlənilməsi üzrə konkret fəaliyyətlərin təftişi, məlumat subyektinin şikayətləri əsasında tədbir görmək, o cümlədən həmin subyektin məlumatların mühafizəsi hüquqları ilə bağlı araşdırma aparmaq və həmin hüquqları təmin etmək, eləcə də məlumat nəzarətçilərinə qanunvericiliyin tələblərinə daha yaxşı əməl etmələri üçün tövsiyələr vermək və məlumatlılıq səviyyəsini artırmaq.

*"Fərdi məlumatlar haqqında" Qanunda* belə bir orqan müəyyən edilməyib, amma məlumat subyektlərinin hüquqlarının təmin edilməsinə gəldikdə "müvafiq icra hakimiyyəti orqanından" bəhs edilir ki, onlar da ayrı-ayrı hallar üçün fərqlidir. Qanun nəzarətlə bağlı bəzi funksiyalara görə məsuliyyəti "müvafiq icra hakimiyyəti orqanına" həvalə edir. Prezidentin 4 iyun 2010-cu il tarixli 275 nömrəli Fərmanında və Nazirlər Kabinetinin 6 sentyabr 2010-cu il tarixli 161 nömrəli Qərarında nəzərdə tutulur ki, "müvafiq icra hakimiyyəti orqanı" ayrı-ayrı hallar üçün fərqli ola bilsə də, bu, bütün hallarda dövlət orqanıdır. "Fərdi məlumatların mühafizəsinə dair Tələblər"in təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin Qərarının 2-ci bəndinə əsasən, həmin tələblərin icrasına nəzarət öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Xüsusi Dövlət Mühafizə Xidməti və Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən həyata keçirilir.

Bələdçi kitabda onu da vurğulamağa dəyər ki, bu sahədə vahid bir orqanın olması praktikası bir çox səbəblərə görə özünü doğruldub. Xüsusi bir orqanın bu sahədə ixtisaslaşması və ümumi perspektivləri ilə yanaşı, belə bir orqanın mövcud olması həm fərdlər, həm də məlumat nəzarətçiləri üçün faydalıdır.

### d) Müvafiq hüquqi sənədlər hansılardır?

- Milli hüquqi sənədlər

Məlumatların mühafizəsinin çətin bir xüsusiyyəti ondan ibarətdir ki, o, müəyyən bir hüquq sahəsi ilə məhdudlaşmır və məsələn, sığorta hüququ və ya əqli mülkiyyət hüququ kimi qanunvericiliyin çoxsaylı sahələrini əhatə edir. Fərdi məlumatların işlənilməsi müəyyən məqsədə xidmət etdiyindən, bu qanunvericiliyin siyahısı spesifik iş sahələrindən asılıdır. Ümumilikdə məlumatların mühafizəsi üzrə mütəxəssis üçün bu iş hər bir sahəni əhatə edə bilər.

Ümumbəşəri insan hüququ kimi tanınan şəxsi həyatın gizliliyi hüququ ilə yanaşı, məlumatların mühafizəsi hüququnun da bir çox milli konstitusiyalarda insan hüququ kimi tanındığını nəzərə alsaq, konstitusiya müddəası məlumatların mühafizəsinin milli səviyyədə tənzimlənməsi üçün baza təşkil etməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsi şəxsi toxunulmazlıq hüququnu müəyyən edir ki, bu da məlumatların mühafizəsini, eləcə də kommunikasiyaların (yazışma, telefon danışıqları və s.) konfidensiallığını nəzərdə tutur.

*"Fərdi məlumatlar haqqında" Qanun* məlumatların işlənilməsi üçün hərtərəfli baza təşkil etməlidir. Bununla belə, müəyyən hallarda fərdi məlumatların işlənilməsinin qanuni olub-olmaması digər qanunvericilik aktları ilə, məsələn, müvafiq sahələrə aid qanunlarla müəyyən edilməlidir. Məsələn, maliyyə təsisatları tərəfindən işlənilə bilən fəri məlumatlar maliyyə sektorunu, təhsil müddətində işlənilə bilən fərdi məlumatlar isə təhsil sektorunu tənzimləyən qanunlar əsasında müəyyən edilməlidir. Məlumatların mühafizəsinə dair milli qanunvericilik aktı fərdi məlumatların hansı şərtlər altında işlənilə biləcəyinə, habelə məlumat nəzarətçilərinin öhdəliklərinə və s. aydınlıq gətirməlidir.

Məlumatların mühafizəsi normalarının düzgün tətbiqi digər qanunların tətbiqindən

asılıdır. Yalnız məlumatların mühafizəsi haqqında qanunu bilmək, bu bilik səviyyəsinin nə qədər yaxşı olmasından asılı olmayaraq, məsələn, şəxsiyyət sənədlərinin verilməsi üçün fərdi məlumatların lazım olub-olmadığı barədə sualın cavablandırılmasını təmin edə bilməz. Bundan əlavə, məlumatların mühafizəsi vasitələri çox vaxt inzibati hüququn tərkib hissəsidir, buna görə də inzibati prosedurlara aid qanunlardan xəbərdar olmaq vacibdir. Bu qanunların siyahısı isə uzundur.

- Beynəlxalq hüquqi sənədlər

Şəxsi həyatın gizliliyi hüququ Azərbaycan Respublikasının həm Birləşmiş Millətlər Təşkilatı, həm də Avropa Şurası səviyyəsində tərəfdar çıxdığı bir sıra beynəlxalq müqavilələrdə öz əksini tapıb.

1966-cı ildə qəbul edilən, Azərbaycan Respublikası tərəfindən 1992-ci ildə ratifikasiya olunan Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt (MSHBP) şəxsi həyatın gizliliyi hüququnu qoruyur. MSHBP-in 17-ci maddəsinə əsasən, heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla və yaxud qeyri-qanuni müdaxilə, onun evinin toxunulmazlığına və məktublaşmalarının gizliliyinə özbaşınalıqla və ya qeyri-qanuni qəsd və ya onun ləyaqəti və nüfuzuna qeyri-qanuni qəsd edilə bilməz və şəxs belə müdaxilə və ya hücumlardan qanunla qorunmaq hüququna malikdir.

Eyni müddəa Azərbaycan Respublikasının 1992-ci ildə ratifikasiya etdiyi Uşaq hüquqları haqqında Konvensiyada da (16-cı maddə) nəzərdə tutulmuşdur (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, № 14, 31.07.1992).

Azərbaycan tərəfindən 2002-ci ildə ratifikasiya olunmuş (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, № 03, 31.03.2002) Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsi də insanların şəxsi və ailə həyatının, mənzilinin və yazışmalarının toxunulmazlığı hüququnu qoruyur. Fərdi məlumatların mühafizəsi ilə bağlı baxdığı işlər üzrə Avropa İnsan Hüquqları Məhkəməsi zəngin kolleksiyaya malikdir.

1981-ci ildə Avropa Şurasının himayəsi altında qəbul edilmiş "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiya" məlumatların mühafizəsi mövzusunda ilk və indiyədək yeganə beynəlxalq müqavilədir. Azərbaycan Respublikası bu müqavilənin iştirakçısıdır ("Azərbaycan" qəzeti, № 247, 05.11.2009), amma müstəqil orqanlarla əlaqədar əlavə protokolları, habelə Konvensiyaya dəyişikliklər edilməsi haqqında 2018-ci ildə qəbul edilmiş protokolu hələ də imzalamayıb və ratifikasiya etməyib. Sonuncunun məqsədi hüquqi bazanı yeni texnologiyalar mühitinə, rəqəmsal əsrə uyğunlaşdırmaq, transsərhəd məlumat axınlarına qaçılmaz olaraq artan tələbatın təmin edilməsini asanlaşdırmaq, habelə fərdlərin onlara aid məlumatların necə işlənildiyinə daha yaxşı nəzarət etməsinə imkan yaratmaqdır.

Çox zaman fərdi məlumatların mühafizəsinin qızıl standartı adlandırılan "Məlumatların mühafizəsinə dair Ümumi Reqlament"in müddəalarını nəzərə almadan fərdi məlumatların mühafizəsinin indiki dövrdə başa düşülməsi mümkün deyil. Dünya ölkələrində qəbul edilmiş bir çox milli qanunlar ya onun surəti olaraq, ya da onun ciddi təsiri altında hazırlanmışdır.

# Məlumatların Mühafizəsinin Prinsipləri

Fərdi məlumatlar bu şərtlə işlənilə bilər ki, belə işlənilmə məlumatların mühafizəsi prinsiplərinə cavab vermiş olsun. Mücərrəd görünə bilmələrinə baxmayaraq, məlumatların mühafizəsi sahəsindəki prinsiplər çox zaman nəzərə çarpan nəticələrə səbəb olan konkret hərəkətlərlə, məsələn, müxtəlif sənədləşdirmənin aparılması ilə müşayiət olunur.

108 saylı Konvensiyaya əsasən, avtomatlaşdırılmış qaydada işlənilən fərdi məlumatlar ədalətli və qanuni yolla əldə edilməli və işlənilməli, müəyyən edilmiş və qanuni məqsədlər üçün saxlanılmalı və bu məqsədlərə uyğun gəlməyən üsullarla istifadə edilməməli, saxlanılmanın məqsədləri baxımından adekvat və uyğun olmalı və lazım olandan artıq olmamalı, zərurət olduqda yenilənməli, məlumat subyektlərinin müəyyənləşdirilməsinə imkan verən formada saxlanılmalı və həmin məlumatların saxlanılması məqsədləri üçün tələb olunan müddətdən artıq saxlanılmamalıdır. Analoji ifadələr 108+ saylı Konvensiyada da yer alır.

GDPR-ə əsasən, fərdi məlumatların işlənilməsi ilə bağlı bir neçə prinsip vardır: qanunilik; ədalətlilik və şəffaflıq; məqsədin məhdudlaşdırılması; məlumatların minimuma endirilməsi; dəqiqlik; saxlanılmanın məhdudlaşdırılması; bütövlük və konfidensiallıq; və hesabatlılıq prinsipləri. Bu prinsiplər fərdi məlumatların işlənilməsinin ümumi xarakterini lazımi şəkildə izah edir.

*"Fərdi məlumatlar haqqında" Qanunda* bu prinsiplərin bəziləri nəzərdə tutulur və onlar müxtəlif maddələrdə, məsələn, 4, 8, 9 və ya 11-ci maddələrdə öz əksini tapıb.

*Qanunilik, ədalətlilik və şəffaflıq prinsipi* işlənilən fərdi məlumatların qanuna uyğun surətdə işlənilməsini nəzərdə tutur, eyni zamanda, məlumatlar üzərində işləyənlər (məlumat nəzarətçiləri) fərdlər (məlumat subyektləri) üçün risklərdən xəbərdar olmalı və məlumatların işlənilməsinə şəffaf şəkildə yanaşmalı, yəni insanlara onlar barəsindəki məlumatların işləniləcəyi və ya işlənilməkdə olduğu barədə məlumat verməlidirlər.

Qanuni işlənilmə fərdi məlumatların işlənilməsi üçün hüquqi əsasın olmasını nəzərdə tutur ki, bu da məlumatların işlənilməsinin məqsədindən və digər hallardan, yəni məlumatların işlənilməsinin səbəbindən asılı olaraq dəyişir. İşlənilmə üçün hüquqi əsas məlumat subyektinin razılığı, məlumat subyekti ilə müqavilə, qanunvericilik normaları, şəxsin sağlamlığının və ya digər mühüm ictimai maraqların qorunması və ya məlumat nəzarətçisinin qanuni maraqları ola bilər.

Əvvəllər məlumat subyektinin razılığı çox vaxt fərdi məlumatların işlənilməsi üçün adi hüquqi əsas kimi qəbul edilirdi, amma bu gün praktikada bu hüquqi əsas nəinki geniş istifadə olunmur, həm də nadir hallarda istifadə olunur. Bu, şəxsin razılığının keyfiyyət tələbindən irəli gəlir – razılıq azad, konkret, bilgiləndirilmiş və birmənalı olmalıdır. Bir çox gündəlik fəaliyyətlərdə, məsələn, əmək qanunvericiliyi münasibətlərinə və ya dövlət orqanları ilə qarşılıqlı əlaqələrə aid hallarda bu razılığın alınması mümkün deyil. Münasibətlər nə qədər yaxşı olsa da, insan razılıq verməmək üçün tam sərbəstliyə malik olmur.

Məlumat nəzarətçisinin qanuni (legitim) marağı bu hüquqi əsasın əksini təşkil edir. Məlumatların işlənilməsi üzrə bir çox fəaliyyətlər bu hüquqi əsasa söykənir, sadəcə olaraq ona görə ki, şəxsin iştirak etdiyi hər bir münasibət qanunda nəzərdə tutula bilməz və tutulmamalıdır. Özəl müəssisənin binasının təhlükəsizliyini təmin etmək və videomüşahidə qurğusu quraşdırmaq qərarı qanuni marağa misaldır. Maliyyə əməliyyatları üçün bir çox mobil proqramların istifadəsi böyük ölçüdə qanuni maraqlara əsaslanır. Bununla belə, qanuni maraq fərdi məlumatların işlənilməsi üçün hüquqi əsas ola bilərsə, o halda həm 108+ saylı Konvensiya, həm də GDPR, eləcə də müvafiq milli qanunlar bu hüquqi əsasa istinad edə bilmək üçün pozitiv balanslaşdırma testinin aparılmasını tələb edir və həmin hüquqi əsas sənədləşdirilməlidir.

Nəzərə almaq lazımdır ki, bəzi hallarda məlumat subyekti ilə münasibətlərə şamil oluna bilən müxtəlif hüquqi əsaslar ola bilər.

*“Fərdi məlumatlar haqqında” Qanunda bir neçə hüquqi əsas nəzərdə tutulur. 9.6-cı maddəyə əsasən, bunlar aşağıdakılardır: yazılı razılıq, məlumatların işlənilməsinin məqsəd və üsullarını müəyyən edən qanunvericilik, məlumatlar elmi və statistik tədqiqat məqsədləri üçün işlənildikdə onların mütləq qaydada adsızlaşdırılması və fərdi məlumatların işlənilməsinin subyektin həyat və sağlamlığını qorumaq üçün lazım olması. Eləcə də məlumatların işlənilməsinə onlar “açıq məlumatlar kateqoriyasına” aid olduğu təqdirdə icazə verilir. Bir çox fəaliyyətlərin İKT vasitəsilə və yaxud hətta şəxsi qaydada həyata keçirildiyini və ölkədə elektron imzadan istifadənin yayıldığını nəzərə alsaq, sonuncu şərtin yerinə yetirilməsinə nail olmaq bəzən çətin, bəlkə də qeyri-mümkün ola bilər.*

İşlənilmənin şəffaflığı məlumat nəzarətçisinin məlumat subyektlərinə fərdi məlumatların işlənilməsi haqqında məlumat vermək öhdəliyinin olması deməkdir. Bu yolla məlumat subyektinə öz məlumatları üzərində nəzarət imkanı verilir və məlumat subyektlərinin müəyyən hallarda, məsələn rəsmi reyestrlər və ya bank hesabı məlumatları ilə bağlı işlənmə prosesindən kənarlaşdırıla bilinməmələrinə baxmayaraq, onlar işlənmə ilə bağlı məlumatlandırılırlar.

*“Fərdi məlumatlar haqqında” Qanunda fərdi məlumatlar məlumat subyektinin razılığı əsasında işlənildiyi hallarda məlumat subyektlərinə təqdim edilən məlumatların siyahısı verilir. 8.2-ci maddəyə əsasən, bunlar aşağıdakılardır: subyektin kimliyini müəyyənləşdirməyə imkan verən məlumatlar; subyektdən razılıq alan mülkiyyətçinin və ya operatorun kimliyini müəyyənləşdirməyə imkan verən məlumatlar; fərdi məlumatların toplanılması və işlənilməsi məqsədi; subyekt tərəfindən işlənilməsinə razılıq verilmiş fərdi məlumatların və onların işlənilmə əməliyyatlarının siyahıları; subyektin razılığının qüvvədə olma dövrü və onun geri götürülməsi şərtləri; fərdi məlumatların müvafiq informasiya sistemində müəyyən olunmuş saxlanma müddəti başa çatdıqdan və ya subyektin ölümündən sonra onun barəsində toplanılmış fərdi məlumatların qanunvericiliklə müəyyən olunmuş qaydada məhv edilməsi və ya arxivləşdirilməsi şərtləri.*

*Məqsədin məhdudlaşdırılması prinsipi* məlumatların işlənilməsi üçün əsas prinsip kimi

qəbul edilə bilər. Hətta hüquqi öhdəlik yerinə yetirildiyi halda belə, bu cür hüquqi təminatın hüquq sistemində yer almasında məqsəd vardır. İdeal halda, işlənilmənin məqsədi müəyyən edildikdən sonra müxtəlif insanlar hüquqi əsas, məlumatların dairəsi, işlənilmə müddəti ilə bağlı eyni qənaətə gələ bilməlidirlər. Resurslardan asılı olaraq onlar müxtəlif təhlükəsizlik tədbirlərinə dair qərar verə bilərlər.

Bununla belə, heç də hər məqsəd işlənilmə prosesini qanuni edə bilməz. Məqsəd müəyyən edilməli, çərçivəsi məhdudlaşdırılmalı və uyğun hesab edilməlidir. Məsələn, pərakəndə ticarətçi ictimai təhlükəsizlik məqsədilə məlumatların işlənilməsini həyata keçirə bilməz, çünki bu, özəl şəxslərin deyil, müvafiq milli hakimiyyət orqanlarının səlahiyyətindədir.

*Məlumatların minimuma endirilməsi* və ya mütənasiblik prinsipi yalnız məqsədə çatmaq üçün zəruri olan məlumatların işlənilməsini və başqa heç bir məlumatın işlənilməməsini nəzərdə tutur. Məsələn, bir binada mənzil sahiblərinin siyahısını aparmaq öhdəliyi varsa, sahiblərdən başqa digər sakinlər və ya onların müvafiq münasibətləri haqqında məlumatların işlənilməsi həddi aşan işlənilmə hesab edilməlidir.

Faktiki olaraq, lüzumsuz fərdi məlumatların işlənməsini qadağan edən milli normalar vardır. Məsələn, "Vətəndaşların müraciətləri haqqında" Qanunun 12.5-ci maddəsi müraciətin həll ilə bağlı olmayan fərdi məlumatların işlənilməsini qadağan edir. Cinayət Prosessual Məcəlləsinin 199-cu maddəsinə əsasən, hər hansı şəxsin şəxsi həyatına aid məlumatların, habelə onun gizli saxlanılmasını lazım bildiyi digər şəxsi xarakterli məlumatların lüzumsuz toplanılmasına, yayılmasına və onlardan istifadə edilməsinə yol verilmir.

*Dəqiqlik prinsipi* qeyri-dəqiq fərdi məlumatların işlənilməməsini təmin etməyi nəzərdə tutur. İşlənilmənin özü, daha doğrusu, işlənilmənin nəticəsi məlumatların keyfiyyətindən asılıdır və qeyri-dəqiq məlumatlar səhv nəticələrə səbəb ola bilər. Məlumatlar yenilənmiş olmaya bilər, lakin həmişə yalnız yenilənmiş məlumatların

işlənilməsinə ehtiyac yoxdur.

_Saxlanılmanın məhdudlaşdırılması prinsipi_ məlumatların işlənilmə müddətinin daimi olmamasını nəzərdə tutur. Bəzi hallarda işlənilmə müddəti qanunvericiliklə müəyyən edilir, məsələn, bu, məhkəmə icraatının aparıldığı hallara aiddir. Misal üçün, bir çox hüquq sistemlərində cinayətə görə məhkum edilmiş şəxs müəyyən müddətdən sonra və qanunla müəyyən edilmiş şərtlərə uyğun olaraq məhkum edilməmiş hesab olunur, ona görə də şəxsin keçmiş məhkumluğuna aid məlumatlar silinməlidir. Digər nümunələr təhsil və ya sosial təminata dair qanunvericilikdə öz əksini tapa bilər. Müddət dəqiq vaxt kəmiyyəti ilə deyil, digər parametrlərlə göstərilə bilər. Buna görə də, işlənilmənin məqsədi ilə müəyyən edilən işlənilmə müddəti hər bir halda məlumatların işlənilməsindən əvvəl bilinməli və vaxtaşırı qiymətləndirilməlidir.

_Məlumatların təhlükəsizliyi, yəni tamlığı və konfidensiallığı prinsipi_ məlumatların təhlükəsiz şəraitdə saxlanılmasını və təhlükəsizlik tədbirlərinin adekvat olmasını nəzərdə tutur. Bu tədbirlər fiziki maneələr və ya şifrələmə kimi texniki xarakterli ola və həmçinin məlumatlarla işləyən personala təlim keçilməsi və ya xidməti zərurət əsasında məlumatlara çıxış əldə edilməsi kimi əməliyyat xarakterli ola bilər.

_Hesabatlılıq prinsipi_ hər bir məlumatın işlənilməsinə görə hesabatlılıq müəyyən etməklə məlumatların məsuliyyətlə işlənilməsinin əsasını qoyur. Məlumatların işlənilməsi üzrə müəyyən fəaliyyətlərin kənardan cəlb olunan subyektlər və ya məlumat emalçılarının (məlumatların operatorlarının) özü tərəfindən həyata keçirilməsindən asılı olmayaraq, məlumat nəzarətçisi fərdi məlumatların işlənilməsinin bütün sikli ərzində məsuliyyət daşıyır. Hesabatlılığın təmin edildiyini sübut etmək üçün çox vaxt məlumat nəzarətçisindən məlumatların işlənilməsinin tələblərə uyğunluğunu nümayiş etdirməsi tələb olunur ki, bu da sənədləşdirmənin aparılması (yəni məlumatların işlənilməsi üçün hüquqi əsas kimi legitim maraqlara əsaslanılan hallarda balanslaşdırma testi, məlumat subyektlərinə verilən və məlumatların işlənilməsi ilə bağlı tələb olunan informasiyaları özündə əks etdirən bildiriş, məlumatların işlənilməsi fəaliyyətlərinə dair qeydlər, personal üçün müxtəlif

qaydalar toplusu və təlim materialları...) ilə nəticələnir.

*Qeyd: "Fərdi məlumatlar haqqında" Qanunda məlumat nəzarətçilərinin vəzifələri ilə məlumatların operatorlarının vəzifələri fərqləndirilmir və belə görünə bilər ki, məlumatların operatorları Qanuna əməl olunmasını təmin etmək üçün onlarla eyni dərəcədə məsuliyyət daşıyırlar.*

# Məlumat Subyektlərinin Hüquqları

Fərdi məlumatların işlənilməsinin baş verdiyi hər bir halda məlumat subyektlərinin hüquqlarının təmin edilməsi öhdəliyi mövcud olur. Qeyd etmək lazımdır ki, bu hüquqlar əsrlərlə inkişaf etmişdir. Misal üçün, bir çox yurisdiksiyalarda, məsələn, Avropa İttifaqına Üzv Dövlətlərdə məlumat subyekti məlumatların daşınar olması hüququna malikdir, yəni nəzarətçiyə təqdim etdiyi özünə aid fərdi məlumatları strukturlaşdırılmış, tez-tez istifadə oluna və maşın tərəfindən oxuna bilən formatda almaq hüququna və həmçinin fərdi məlumatların təqdim edildiyi nəzarətçi tərəfindən maneə yaradılmadan həmin məlumatları başqa nəzarətçiyə ötürmək hüququna malikdir. Bu elə bir hüquqdur ki, hər yerdə yayılmış olan texnologiyalardan və məlumatların işlənilməsi vasitələrindən irəli gəlir. Eyni sözlər məlumatların silinməsi hüququnun bir hissəsi kimi götürülən "unudulmaq hüququna" da aiddir ki, bu da ilk növbədə internetdə yerləşdirilən məzmuna şamil olunur.

108 saylı Konvensiyaya əsasən, məlumat subyekti məlumatların işlənilməsi barədə, o cümlədən nəzarətçinin şəxsiyyəti, işlənilmənin məqsədi, düzəliş və ya silinmə hüququ, habelə onun sorğusu yerinə yetirilmədikdə istifadə edə biləcəyi hüquqi müdafiə vasitəsi haqqında məlumat almaq hüququna malikdir. 108+ saylı Konvensiyada məlumat subyektinin hüquqlarının analoji siyahısı yer alır və orada informasiya texnologiyaları ilə bağlı hüquqlar da vardır ki, onların bəzilərinə məlumat subyektlərinin yeni nəsil hüquqları kimi baxmaq olar. Məsələn, fərdi məlumatların avtomatlaşdırılmış işlənilməsinin nəticələri nəzərə alınaraq, əsas hüquq yalnız məlumatların avtomatlaşdırılmış işlənilməsi faktına əsaslanan və məlumat subyektlərinin rəyini nəzərə almayan, məlumat subyektlərinə əhəmiyyətli dərəcədə təsir göstərən qərardan asılı olmamalıdır və belə hallarda məlumat subyekti etiraz hüququna malikdir.

GDPR-ə əsasən, bunlar məlumatlandırılmaq hüququ, məlumatlara çıxış hüququ, düzəliş və silinmə hüquqları, işlənilmənin məhdudlaşdırılması hüququ, sözügedən məlumatların daşınar olması hüququ, etiraz hüququ, avtomatlaşdırılmış qərar qəbulu ilə, o cümlədən profilləşdirmə ilə bağlı hüquqlar, habelə hüquqi müdafiə

vasitəsindən istifadə hüququdur.

*"Fərdi məlumatlar haqqında" Qanunda* məlumat subyektlərinin hüquqlarının siyahısı təqdim edilir. 7-ci maddəyə əsasən, məlumat subyekti ona aid məlumatların işlənilməsi, məlumat nəzarətçilərinin şəxsiyyəti, məlumatların dairəsi, onların işlənilməsinin məqsədləri barədə məlumat almaq, məlumatların silinməsini/məhv edilməsini tələb etmək, sonrakı işlənilmələrin qarşısını almaq, habelə fərdi məlumatların toplanıldığı mənbə haqqında məlumat almaq hüququna malikdir. O, həmçinin uyğunluq sertifikatı, habelə digər hüquqlar haqqında məlumat tələb edə bilər. Qanunvericiliklə məlumatların işlənilməsinin məcburi olduğu hallar istisna olmaqla, məlumat subyektlərinin məlumatların işlənilməsinə etiraz etmək hüququ vardır. Nəhayət, onların "müvafiq orqana" şikayət etmək hüququ var. Yuxarıda qeyd edildiyi kimi, məlumatların mühafizəsi üzrə xüsusi orqan yoxdur və şikayət müxtəlif qurumlara, məsələn ayrı-ayrı nazirliklərə göndərilə bilər.

Məlumat subyektinin sorğularını cavablandırması üçün məlumat nəzarətçisinə, 12.4-cü maddədə nəzərdə tutulduğu kimi, ən çoxu 7 iş günü vaxt verilir, amma üçüncü şəxsə müraciət etmək zərurətinin olduğu hallar istisna təşkil edir. Bu halda müddət daha 7 iş günü uzadıla bilər. Fərdi məlumatlar üçüncü şəxslə paylaşıldığı halda, məlumat nəzarətçisi (və ya emalçı, yəni operator) sorğunun yerinə yetirilməsi üçün görülən tədbirlər barədə üçüncü şəxsə məlumat verməlidir. Nəzarətçi və ya operator subyektin sorğusunun icrasından qanunvericiliklə müəyyən edilmiş əsaslarla imtina etdikdə bunun üçün qısaldılmış müddət (5 iş günü) nəzərdə tutulur.

Fərdi məlumatların işlənilməsi ilə bağlı məlumat subyektlərinin hüquqları mütləq deyil və digər maraqlarla balanslaşdırılmışdır, hansı ki, həm özəl, həm də dövlət qurumlarının maraqları ola bilər. Bununla belə, məlumat subyektinin hüquqlarına tətbiq edilən belə məhdudiyyət qanunla nəzərdə tutulmalı, qanuni maraqların qorunmasına yönəlməli və demokratik cəmiyyətdə zəruri olmalıdır. 108+ saylı Konvensiyanın 11-ci maddəsindəki ifadələrlə desək, Konvensiyanın bəzi müddəalarına (bütün müddəalara deyil) münasibətdə istisnaya yalnız o halda yol

verilir ki, həmin istisna *“qanunla nəzərdə tutulmuş olsun, əsas hüquq və azadlıqların mahiyyətinə xələl gətirməsin və aşağıdakı məqsədlər üçün demokratik cəmiyyətdə zəruri və mütənasib olsun:*

*a. milli təhlükəsizlik, müdafiə, ictimai asayış, dövlətin mühüm iqtisadi və maliyyə maraqlarının müdafiəsi, məhkəmə hakimiyyətinin qərəzsizliyi və müstəqilliyi və ya cinayətlərin qarşısının alınması, araşdırılması və cinayət təqibinin aparılması, cinayət cəzalarının icrası və ümumi ictimai maraqların qorunmasının digər mühüm məqsədləri;*

*b. məlumat subyektinin və ya digər şəxslərin hüquqlarının və əsas azadlıqlarının, xüsusən də ifadə azadlığının qorunması”.*

Avropa İnsan Hüquqları Məhkəməsi məlumatların mühafizəsi ilə əlaqədar olan bir sıra işlər üzrə qərarlar qəbul etmişdir ki, həmin işlərdə qanunun keyfiyyəti, qanuni maraqlar və ya məlumatların mühafizəsi hüququna tətbiq edilən məhdudiyyətlərin zəruriliyi kimi məsələlərə baxmışdır. İstisna hallardan qanuni şəkildə istifadənin şərtləri ilk dəfə kommunikasiyalara dövlət nəzarəti, hüquqlarını məhdudlaşdıran tədbirlərin tətbiqinin mümkünlüyünü şəxsin öncədən görə bilməsi, habelə istisna hal üçün əsas təşkil edən qanunvericiliyin kifayət qədər aydın xarakter daşımasının zəruriliyi ilə əlaqədar olan işlərdə işlənib hazırlanmışdır. Məhkəmə təcrübəsi illər boyu formalaşmış və belə bir anlayışa əsaslanmışdır ki, digər hüquqlara münasibətdə olduğu kimi, bu sahəyə aid hüquqların da qorunmasını təmin etməkdə dövlət həm neqativ, həm də pozitiv öhdəliklər daşıyır. Həmin əsas işlərdən bəziləri bu bələdçi kitabın sonunda sadalanır.

# Nəzarətçilərin və Emalçıların Vəzifələri

Yuxarıda qeyd edildiyi kimi, fərdi məlumatların hər bir işlənilməsinə görə məsuliyyət fərdi məlumatların mühafizəsinə cavabdeh olanların, deməli, məlumat subyektləri qarşısında cavabdehlik daşıyanların üzərinə düşür. Bu məsuliyyət məlumat nəzarətçilərinin fərdi vəzifələri sadalanmaqla təsvir edilə bilər.

Sözügedən vəzifələri hər bir məlumat nəzarətçisinə aid edilənlər və yalnız bəzilərinə aid edilənlər olmaqla fərqləndirmək olar.

Hər bir məlumat nəzarətçisi məlumatların mühafizəsinin bütün prinsiplərinə əməl etməli və məlumat subyektlərinin hüquqlarına tam riayət edilməsini təmin etməlidir. Qısaca desək, məlumat nəzarətçisi fərdi məlumatların işlənilməsini yalnız qanunda nəzərdə tutulmuş hüquqi əsaslarla (razılığın olması, müvafiq qanunvericilik normasının olması, yaxud digər qanunvericilik aktları tətbiq edildikdə həm də məlumat subyektləri ilə müqavilənin olması və ya nəzarətçinin qanuni maraqlarının nəzərə alınması) müəyyən məqsədlər üçün həyata keçirə bilər. Eyni zamanda məlumatların dairəsi qarşıya qoyulan məqsədə mütənasib olmalı, işlənilən məlumatlar dəqiq olmalı və müvafiq təhlükəsizlik tədbirləri tətbiq edilməklə tələb olunan müddətdən artıq saxlanılmamalıdır. Bundan əlavə, hər bir məlumat nəzarətçisi məlumat subyektlərinə məlumatların işlənilməsi haqqında məlumat verməli və məlumat subyektlərinin onlara aid məlumatlarla bağlı sorğuları üzrə tədbir görməlidir.

Bu vəzifələrlə yanaşı, müəyyən hallarda tətbiq edilə bilən və yaxud tətbiqi bir sıra hallardan, məsələn, işlənilən məlumatların həssaslığından, əhatə dairəsindən, məlumat nəzarətçisinin fəaliyyətinin xarakterindən və ya hər hansı digər əhəmiyyətli xüsusiyyətlərdən asılı olan digər vəzifələr də vardır.

*"Fərdi məlumatlar haqqında" Qanunda* məlumat nəzarətçilərinin bir neçə konkret vəzifələri sadalanır.

5.1-ci maddəyə əsasən, fərdi məlumatlar iki kateqoriyaya bölünür – açıq və

konfidensial. Belə bir vəzifə məlumatların fərqləndirilməsini və ehtimal ki, onlara müxtəlif təhlükəsizlik tədbirlərinin tətbiqini nəzərdə tutur.

5.5-ci maddə məlumat nəzarətçilərinin, eləcə də məlumat emalçılarının üzərinə hər hansı işlənilmə fəaliyyətində iştirak edən şəxslərin, məsələn işçilərin, podratçıların fərdi məlumatların konfidensiallığına dair yazılı iltizam verməlerini təmin etmək öhdəliyi qoyur.

Bundan əlavə, 8-ci maddə işlənilmənin məlumat subyektinin razılığı əsasında aparıldığı hallarda məlumat subyektinə lazımi məlumatları təqdim etmək vəzifəsini nəzərdə tutur.

9.9-cu maddəyə əsasən, məlumat nəzarətçisi bütün işlənilmə fəaliyyətlərini yerinə yetirməyərək onların bəzilərini məlumat emalçısına (yəni məlumatların operatoruna) həvalə etdiyi təqdirdə, bu, müqavilə əsasında həyata keçirilə bilər, buna görə də nəzarətçi müqavilə bağlamalıdır və həmin müqavilənin elementləri 10.3-cü maddədə qeyd edilir.

Məlumat nəzarətçisinin həm də fərdi məlumatların təhlükəsiz transsərhəd ötürülməsini təmin etməsi nəzərdə tutulur. Bu vəzifə  fərdi məlumatların ötürüldüyü ölkənin milli qanunvericiliyində nəzərdə tutulmuş milli təhlükəsizliyə və mühafizə səviyyəsinə aid tələblərin yerinə yetirilməsi ilə yanaşı, xüsusən 14.4-cü maddəyə uyğun olaraq məlumatların təhlükəsizliyinin təmin edilməsini nəzərdə tutur.

Nəhayət, 15-ci maddəyə əsasən, məlumat nəzarətçisi "fərdi məlumatların informasiya sistemlərinin dövlət qeydiyyatına alınmasına" cavabdehdir. Bu qeydiyyatın aparılması üçün məlumat nəzarətçisi müxtəlif növ məlumatları, məsələn: məlumat nəzarətçisinin (məlumatların mülkiyyətçisinin) kimliyini müəyyənləşdirən məlumatları; informasiya sisteminin yaradılmasının hüquqi əsaslarını; işlənilmənin məqsədini; işlənilən fərdi məlumatların kateqoriyalarını; habelə məlumat subyektlərinin kateqoriyalarını təqdim etməlidir. Bundan başqa, məlumat nəzarətçisi

fərdi məlumatların mühafizəsi ilə bağlı öhdəsinə götürdüyü tədbirlərin ümumi təsvirini; fərdi məlumatların toplanılmasına və işlənilməsinə başlanıldığı tarixi; fərdi məlumatların istifadəçilərinin dairəsini; fərdi məlumatların toplanılmasına və işlənilməsinə nəzarət və audit mexanizmlərini; habelə digər əlaqəli informasiya sistemlərini, həmin sistemlərlə informasiya mübadiləsi üsullarını və mübadilə edilən məlumatların kateqoriyalarını qeyd etməlidir. Bundan əlavə, məlumat nəzarətçisi məlumat subyektinin Qanunda göstərilən hüquqlarının, məsələn işlənilmə ilə bağlı məlumat almaq, yəni məlumat nəzarətçilərinin kimliyi, məlumatların dairəsi, məqsədləri barədə məlumatlandırılmaq hüququnun, məlumatların silinməsini/məhv edilməsini tələb etmək, məlumatların sonrakı işlənilməsinin qarşısını almaq, fərdi məlumatların toplanıldığı mənbə haqqında məlumat almaq hüququnun, habelə 7.1-ci maddədə nəzərdə tutulan digər hüquqlarının təmin edilməsi qaydaları haqqında məlumat təqdim etməlidir. Nəhayət, məlumat nəzarətçisi digər dövlətlərə, habelə beynəlxalq təşkilatlara transsərhəd ötürülən fərdi məlumatların kateqoriyaları haqqında məlumat təqdim etməlidir.

# Müvafiq Məhkəmə İşləri

Avropa İnsan Hüquqları Məhkəməsinin fərdi məlumatların mühafizəsi mövzusunun müxtəlif aspektlərini əhatə edən qərarları beynəlxalq və ölkədaxili praktika üçün mühüm bələdçi rolunu oynayır. Bu qərarlar müxtəlif kateqoriyalara aid məlumatların toplanılması, istifadəsi və açıqlanması, fərdi məlumatların əldə edilməsi və s. kimi bir sıra mühüm məsələlərin aydınlaşdırılması baxımından əhəmiyyət kəsb edir. Avropa Şurası Avropa İnsan Hüquqları Məhkəməsinin fərdi məlumatların mühafizəsi ilə bağlı presedent hüququnun yenilənmiş siyahısını aparır ki, həmin siyahını internetdən əldə etmək olar.

Aşağıdakı siyahı məlumatların mühafizəsi ilə bağlı müxtəlif məsələlərlə əlaqədar olan həmin işlərin bəzilərini əks etdirir. Lütfən nəzərə alın ki, bu işlərin çoxu müxtəlif açar sözlər əsasında təqdim edilə bilər.

- Fərdi məlumatların əldə edilməsi

*Qaskin (Gaskin) Birləşmiş Krallığa qarşı*, 7 iyul 1989-cu il tarixli qərar, ərizə № 10454/83. Uşaqlıqdan himayəyə verilmiş şəxsə sosial xidmətlər tərəfindən saxlanılan şəxsi işinin sənədlərinə məhdudiyyətsiz çıxış imkanının verilməsindən imtina edildiyi bu işdə Konvensiyaya əməl olunması təmin edilməyib.

- Məlumatların mühafizəsinin ifadə azadlığı və informasiya əldə etmək hüququ ilə balanslaşdırılması

*Fon Hannover (Von Hannover) Almaniyaya qarşı*, 24 iyun 2004-cü il tarixli qərar, ərizə № 59320/00. İctimai xadimlərin hətta ictimai yerlərdə fotoşəkilləri çəkilərkən dövlət onların imicini qorumağa borcludur.

*Mosli (Mosley) Birləşmiş Krallığa qarşı*, 10 may 2011-ci il tarixli qərar, ərizə № 48009/08. Avropa İnsan Hüquqları Konvensiyası media nəşrlərində yer alması nəzərdə tutulan şəxslərə bu barədə qabaqcadan məlumat verilməsini tələb etmir.

*Xədicə İsmayılova (Khadija Ismayilova) Azərbaycana qarşı,* 10 yanvar 2019-cu il tarixli qərar, ərizə № 65286/13. Araşdırmada əhəmiyyətli nöqsanların olması və iş üzrə icraatın ümumilikdə uzun sürməsi səbəbindən dövlət ərizəçinin 8-ci maddədə nəzərdə tutulmuş şəxsi həyatının qorunması ilə bağlı pozitiv öhdəliyini yerinə yetirməmişdir.

- Məlumat subyektinin razılığı

*Mürrey (Murray) Birləşmiş Krallığa qarşı,* 28 oktyabr 1994-cü il tarixli qərar, ərizə № 14310/88. Terrorçuluqda şübhəli bilinən şəxsdən söhbət getdikdə, şəxsin tutulmasını həyata keçirmək, fərdi məlumatlarını və fotoşəkillərini qeydə almaq məqsədilə onun razılığı olmadan evinə daxil olma və evdə axtarış aparma Konvensiyanın pozuntusu deyil.

- Yazışmalar

*Meloun (Malone) Birləşmiş Krallığa qarşı,* 2 avqust 1984-cü il tarixli qərar, ərizə № 8691/79. Bütövlükdə cinayət araşdırması kontekstində həm polis tərəfindən, həm də polisin tapşırığı ilə həyata keçirilən poçt və telefon rabitələrinin ələ keçirilməsi və telefonların "dinlənilməsi" nəticəsində əldə edilmiş məlumatların yayılması Konvensiyanın pozuntusudur.

*Kopland (Copland) Birləşmiş Krallığa qarşı,* 3 aprel 2007-ci il tarixli qərar, ərizə № 62617/00. İşçinin telefondan, elektron poçtdan və internetdən istifadəsinin izlənilməsi Konvensiyanın pozuntusudur.

- DNT məlumatları bazası

*S. və Marper (S. and Marper) Birləşmiş Krallığa qarşı,* 4 dekabr 2008-ci il tarixli qərar, ərizələr № 30562/04 və 30566/04. Dövlətin Konstitusiya Məhkəməsinin bu cür məlumat bazasının konstitusiyaya uyğunluğu ilə bağlı qeyd-şərtlərini bildirməsinə,

habelə törədilmiş cinayətlərin xarakterindən və ağırlığından asılı olaraq məlumatların saxlanılma müddətlərinin fərqləndirilməli olduğunu qeyd etməsinə baxmayaraq, kompüterləşdirilmiş milli DNT məlumat bazasına bu cür məlumatlarının daxil edilməsindən şəxsin imtina etməsinə görə məhkum edilməsi şəxsi həyata hörmət hüququna ziddir.

- GPS məlumatları

*Uzun (Uzun) Almaniyaya qarşı*, 2 sentyabr 2010-cu il tarixli qərar, ərizə № 35623/05. Ağır cinayət törətməkdə şübhəli bilinən şəxsin GPS vasitəsilə izlənilməsi əsaslıdır və Konvensiyanın tələblərinə zidd deyil.

- Sağlamlıqla bağlı məlumatlar

*Surikov (Surikov) Ukraynaya qarşı*, 26 yanvar 2017-ci il tarixli qərar, ərizə № 42788/06. İşəgötürən tərəfindən vəzifədə irəli çəkilmə məsələsinə baxılarkən şəxsin psixi sağlamlığına aid məlumatlar da daxil olmaqla həssas xarakterli sağlamlıq məlumatlarının toplanılması, saxlanılması və istifadəsi və belə məlumatların onun həmkarlarına bildirilməsi və açıq məhkəmə iclası zamanı açıqlanması Konvensiyanın pozuntusudur.

- İdentiklik

*Rana (Rana) Macarıstana* qarşı, 16 iyul 2020-ci il tarixli qərar, ərizə № 40888/17. İş Macarıstanda sığınacaq alan, amma bu ölkədə qanuni əsasda cinsini və adını dəyişə bilməyən İrandan olan transgender kişi ilə əlaqədar idi. Məhkəmə belə qənaətə gəldi ki, cinsiyyətinin qanunla tanınması prosedurundan istifadə etməsinə icazə verməkdən imtina edildiyinə görə ictimai maraqlarla ərizəçinin şəxsi həyatına hörmət hüququ arasında ədalətli balans gözlənilməyib.

- İş yerində şəxsi həyatın toxunulmazlığı

*Barbulesku (Bărbulescu) Rumıniyaya qarşı,* 5 sentyabr 2017-ci il tarixli qərar, ərizə № 61496/08. İşçinin elektron kommunikasiyalarının monitorinqi onun şəxsi həyatının və yazışmalarının toxunulmazlığı hüququnun pozulmasına bərabərdir.

- Müşahidə və texnologiyalar

*Trabaxo Rueda (Trabajo Rueda) İspaniyaya qarşı,* 30 may 2017-ci il tarixli qərar, ərizə № 32600/12. İlkin məhkəmə icazəsi almadan və təxirəsalınmaz hal olmadan uşaq pornoqrafiyası materiallarını özündə ehtiva edən kompüter fayllarına polisin daxil olması mülkiyyətçinin şəxsi həyatına hörmət hüququnun pozuntusudur.

*Benedik (Benedik) Sloveniyaya qarşı*, 24 aprel 2018-ci il tarixli qərar, ərizə № 588/13. Dinamik IP ünvanı ilə əlaqələndirilən abunəçi məlumatlarına polisin çıxış əldə etməsi üçün məhkəmə qərarı tələb olunsa da, milli qanunvericilik aydın deyildi və özbaşına müdaxilədən praktiki olaraq heç bir qorunmanı təmin etmirdi, sui-istifadəyə qarşı heç bir təminat yox idi və müvafiq polisin səlahiyyətləri üzərində müstəqil nəzarət yox idi.

- Videomüşahidə

*Antoviç və Mirkoviç (Antović and Mirković) Monteneqroya qarşı, 28 noyabr 2017-ci il tarixli qərar, ərizə № 70838/13*. Təhsil müəssisəsinin ərazisindəki mühazirə auditoriyalarının kamera ilə izlənilməsi professorların şəxsi həyatının gizliliyi hüququnu pozub.

# Faydalı Resurslar

Şəxsi həyatın gizliliyi hüququ və məlumatların mühafizəsi hüququ haqqında daha çox öyrənmək istəyənlərə kömək edə biləcək ödənişsiz bir çox onlayn resurslar mövcuddur.

Avropa Şurasının məlumatların mühafizəsinə dair saytı belə resursların nümunələrindən biridir ki, burada oxucu Avropa Şurasının rəhbərliyi altında qəbul edilmiş məlumatların mühafizəsinə dair bütün müvafiq sənədləri, məhkəmə işlərinin qısa izahlarla birlikdə zəngin siyahısını, məlumatların mühafizəsi ilə bağlı keçirilməsi gözlənilən tədbirlər haqqında xəbərləri və s. tapa bilər. Avropa Şurası, həmçinin məlumatların mühafizəsi üzrə ödənişsiz onlayn özünüqiymətləndirmə kursu ("Məlumatların mühafizəsi və şəxsi həyatın gizliliyi hüquqlarına dair HELP kursu") hazırlayıb.

Avropa Şurasının (Avropa İnsan Hüquqları Məhkəməsinin dəftərxanası ilə birlikdə), Avropa İttifaqının (Fundamental Hüquqlar üzrə Agentlik və Məlumatların Mühafizəsi üzrə Avropa Nəzarət Orqanı) birgə işi nəticəsində 2018-ci ildə "Məlumatların mühafizəsi haqqında Avropa qanunvericiliyinə dair məlumat kitabı" nəşr olunub, kitabda həm 108+ saylı Konvensiyanın, həm də "Məlumatların mühafizəsinə dair Ümumi Reqlament"in (GDPR) müəyyən etdiyi dəyişikliklər əks olunub. Məlumat kitabını müxtəlif dillərdə ödənişsiz yükləmək olar.

Fərdi məlumatların işlənilməsi ilə əlaqədar sahələrdə Avropa İttifaqının işi ilə və xüsusən Aİ-yə Üzv Dövlətlərdəki tərəfdaşların əməkdaşlığı ilə daha çox maraqlananlar faydalı resursları Avropa Məlumatların Mühafizəsi Şurasının, habelə Məlumatların Mühafizəsi üzrə Avropa Nəzarət Orqanının saytında tapa bilərlər. Avropa İttifaqı Ədalət Məhkəməsi, Aİ-nin məhkəmə orqanı olaraq, məlumatların mühafizəsinə dair işlər üzrə qərar verir və indiyədək zəngin məhkəmə praktikası formalaşdırmışdır ki, həmin praktika təkcə fərdlərin hüquqlarına deyil, həm də milli qanunvericilik normalarının daha konkret Aİ normalarına, xüsusən də GDPR-ə uyğunluğu məsələlərinə aiddir. Maraqlananlar üçün qeyd edək ki, media GDPR-nin pozulmasına görə məlumatların mühafizəsi üzrə milli orqanlar tərəfindən müəyyən edilmiş yüksək cərimələrin tətbiqi barədə mütəmadi olaraq məlumat verir.